

# Burada əsrlər qovuşur

***Daşkəsən rayon tarix-diyarşünaslıq muzeyi 1984-cü ildən fəaliyyət göstərir.***

Muzey şəhərin mərkəzində - Tofiq İsmayılov küçəsində yerləşir.

Muzey 8 bölmədən ibarətdir:

- Daşkəsənin sərvətləri və onun iştirakçıları.
- Daşkəsənin qədim yaşayış zonaları və binaları.
- Qədim kəndli və kəndli təsərrüfatı:
- Daşkəsənin Böyük Vətən Müharibəsi iştirakçıları, kitab, qəzet və jurnallar, şəhidlərin xatirəsinə həsr olunmuş fotoşəkillər və fotostendlər;
- Elmi-texniki, texnoloji tərəqqi və Daşkəsən haqqında memuar:
- Heydər Əliyevin keşməkeşli həyat yollarından bəhs edən fotoşəkillər və kitablar.
- Azərbaycanın Prezidenti cənab İlham Əliyevin Daşkəsən rayonuna səfəri ilə bağlı fotoşəkillər. Başqa ölkələrdə bağladığı müqavilələrin, görüşlərin fotoşəkilləri nümayiş etdirilir və gələcəkdə bu fotoşəkillər təkmilləşdiriləcəkdir.

Muzeydə 721 ədəd tarixi və elmi əhəmiyyətə malik eksponat təbliğ olunur.

Azərbaycanın ərazisində mövcud olmuş Albaniya dövləti haqqında məlumatlar verilir.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin 2980/06 N-li məktubuna əsasən 03.02.2009-cu il tarixdən muzey işçilərinin iştirakı ilə müzakirələr aparılmış, aşağıdakı təkliflər irəli sürülmüşdür:

- Maliyyə vəsaitinin ayrılması barədə (muzeyə əşya alınması üçün);
- Pullu xidmətdən istifadə olunmamasının səbəbi və bu sahədə tədbirlər planının hazırlanıb həyata keçirilməsi;
- Eksponatların toplanması üçün tədqiqat qrupunun yaradılması;
- Muzeyin milli ruhda restovrasiyasının təşkili;
- Daşkəsənin quruculuq salnaməsini əks etdirən kinofilmin nümayişi;
- Görülən işlər barədə hər ay Daşkəsən Rayon Mədəniyyət və Turizm şöbəsinə məlumatların təqdim olunması;
- Fond-satınalma komissiyasının yenidən təşkil edilməsi;
- Yeni latın qrafikalı kütləvi bədii ədəbiyyatın muzeyin fonduna daxil edilməsi;
- Tarix-diyarşünaslıq muzeyində "Salnamə" adı altında videoteka fondunun yaradılması və s.

İşimizi yüksək səviyyədə qurmaq üçün biz bundan sonra da bütün imkanlarımızdan istifadə edəcəyik...

● **Nazilə SÜLEYMANOVA,**
***Daşkəsən rayon tarix-diyarşünaslıq muzeyinin direktoru***

**Redaksiyadan: Süleymanova Nazilə İsmət qızı 1961-ci ildə Daşkəsəndə anadan olub. ADMİU-nun məzunudur. 1999-cu ildən muzeyin direktoru vəzifəsində çalışır.**